# Ön söz

44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının uzun müddət davam edən işğalına son qoyulmuşdur. Hal-hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş bütün ərazilərin dirçəlişi prosesi həyata keçirilir.

Azərbaycan ərazilərinin 20 faizinin 30 ilə yaxın müddətdə işğal altında qalması həmin ərazilərdəki tarixi və mədəni irsimiz üçün də fəlakətli fəsadlara səbəb olmuşdur. 1994-cü ildə atəşkəsin elan edilməsindən sonrakı 26 illik dövrün təhlili göstərir ki, Ermənistan tərəfindən Azərbaycan abidələrinin məhv edilməsi hərbi əməliyyatlardan sonrakı dövrdə daha geniş miqyasda aparılmışdır.

Ermənistan Azərbaycana qarşı qanunsuz və əsassız ərazi iddialarını reallaşdırmaq məqsədilə 1991-ci ilin sonundan tam miqyaslı müharibəyə başlamış, nəticədə Azərbaycanın təbii sərvətlər və mədəni irsi ilə zəngin olan ərazisinin əhəmiyyətli bir hissəsi işğal edilmişdir. Müharibə nəticəsində on minlərlə insan həyatını itirmiş, şəhərlər, qəsəbələr və kəndlər dağıdılmış, erməni vandalizminə məruz qalmışdır. Bütün işğal olunmuş ərazilərdə 700 mindən çox azərbaycanlı etnik təmizlənməyə məruz qalmış, regionun infrastrukturuna ciddi ziyan vurulmuşdur.

Ermənistan tərəfindən 700-dən çox tarixi abidə, 22 muzey, o cümlədən 100 min muzey eksponatı, 927 kitabxana, 58 arxeoloji yaşayış məskəni, 26 qala və qala divarı, habelə digər mədəni irs abidələri mənimsənilmiş, məhv və talan edilmişdir.

İşğal nəticəsində bu mirasın məqsədyönlü şəkildə məhv edilməsi siyasəti həm Azərbaycan mədəniyyətinə, həm də dünya sivilizasiyasına bərpası olmayan zərbə vurmuşdur. Ermənistan işğal olunmuş ərazilərdəki yaşayış məntəqələrinin mədəni görkəmini məqsədyönlü şəkildə dəyişdirməklə, abidələri məhv etməklə, memarlıq xüsusiyyətlərini dəyişməklə və arxeoloji qazıntılar aparmaqla bunların Azərbaycan mənşəli olduğunu göstərən əlamətlərini aradan qaldırmaq məqsədi güdmüşdür.

Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını almaq məqsədilə 27 sentyabr 2020-ci ildə bütün cəbhə boyu əks-hücuma keçən Azərbaycan Ordusu 1990-cı illərin əvvəllərində baş verən Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işğal edilmiş əraziləri işğaldan azad etməyə başlamışdır. 44 gün davam edən və "Vətən müharibəsi" olaraq adlandırılan müharibə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun gücünü göstərərək Azərbaycanın qələbəsi ilə başa çatmışdır. Azərbaycanın mədəniyyət paytaxtı hesab edilən Şuşa şəhəri Şanlı Azərbaycan Ordusu tərəfindən azad edildikdən dərhal sonra, 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan üçtərəfli Bəyanat nəticəsində 1 dekabr tarixi etibarilə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Qarabağ (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) iqtisadi rayonlarının yeni bölgüsü təsdiqlənmişdir. Hal-hazırda Qarabağ və Şərqi Zəngəzurun sürətli dirçəlişi prosesi gedir.

"Zəfərdən bu günə" informasiya bülleteni işğaldan azad edilmiş ərazilərimizdə gedən dirçəliş prosesi ilə bağlı rəsmi xronikanı özündə əks etdirir.

Azərbaycan, rus, ingilis və ispan dili olmaqla 4 dildə nəşr edilən bülletenin hər sayı 6 aylıq dövrü əhatə edir və ildə 2 dəfə - yanvar və iyul aylarında işıq üzü görür.



“Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.”

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti






**30**
**YANVAR**
**2022**

## Gəncə Memorial Kompleksinin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə Memorial Kompleksinin təməlini qoymuşdur.

Vətən müharibəsi dövründə Gəncə şəhəri oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif təyinatlı “Toçka-U”, “Smerç”, “SCUD” və digər raket qurğularından endirilən zərbələrə məruz qalmışdır. Nəticədə 6-sı uşaq olmaqla, 26 mülki şəxs həlak olmuş, 31-i uşaq olmaqla, 142 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri almışdırlar.

Kompleksin yaradılacağı ərazi ilə tanış olan Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket hücumu nəticəsində həlak olan dinc sakinlərin xatirə guşəsinin önünə gül dəstəsi qoymuşdur.



**13**
**FEVRAL**
**2022**

## "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının və "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdam şəhərində yeni inşa edilmiş "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının, o cümlədən "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdirlər. Prezident İlham Əliyev yarımstansiyaların və mərkəzin açılışını etmişdir.

İşğaldan azad edilən Ağdam rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərenerji" ASC tərəfindən "Xındırıstan" yarımstansiyasından 35 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti çəkilmişdir. Bu xətt tam minalanmış ərazidən keçmişdir. Bəzi yerlərdə minalar arasından bir neçə metr enində cığır açılaraq bu çətin vəzifə icra edilmişdir. Ağcabədidən Xındırıstana, oradan da "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarına qədər ümumilikdə 63 kilometr məsafədə 110 kilovoltluq xəttin üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiberoptik kabel çəkilmişdir. Bununla da Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xətti gətirilmişdir.



13
FEVRAL
2022

## Ağdam Sənaye Parkında təməlqoyma mərasimləri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdam Sənaye Parkında iki müəssisənin təməlqoyma mərasimində iştirak etmişdirlər. Dövlətimizin başçısı hər iki müəssisənin təməlini qoymuşdur.

Ağdamın Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları şəhərin gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. Ağdam Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir. Ağdam Sənaye Parkı 190 hektar ərazini əhatə edir. Sənaye Parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilmişdir.

Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq 5 sahibkarlıq subyekti bu Parkın rezidenti kimi qeydiyyata alınmışdır. Prezident İlham Əliyev tərəfindən təməli qoyulan Ağdam Sənaye Parkının rezidenti "Smart-point" MMC burada reallaşdıracağı layihə çərçivəsində alternativ və bərpaolunan enerji mənbələri ilə (əsasən günəş enerjisi) qidalanan işıq dirəklərinin və digər qurğuların istehsalını təşkil edəcəkdir. Sənaye Parkının 1,3 hektar ərazisində inşa ediləcək müəssisədə 80 daimi iş yeri yaradılacaqdır. Müəssisənin tikintisinə başlandıqdan sonrakı 6 ay müddətində istismara verilməsi nəzərdə tutulmuşdur. Təməli qoyulan digər resident - "Dadaş-N" MMC Sənaye Parkında həyata keçirəcəyi layihə çərçivəsində müxtəlif çeşidli sintetik xalçalar istehsal edəcəkdir. İnvestisiya dəyəri 9,5 milyon manat olan layihə çərçivəsində yaradılacaq müəssisədə il ərzində 700 min kvadratmetr xalça istehsal ediləcəkdir. Sənaye Parkının 2 hektar ərazisində inşa ediləcək müəssisədə 60 daimi iş yeri yaradılacaqdır. Müəssisənin tikintisinə başlandıqdan 24 ay müddətinə istismara verilməsi nəzərdə tutulmuşdur.



13
FEVRAL
2022

## "Park Forest Otel Ağdam" mehmanxanasının təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində inşa olunacaq "Park Forest Otel Ağdam" mehmanxanasının təməlqoyma mərasimində iştirak etmişdirlər. Fevralın 13-də Prezident İlham Əliyev otelin təməlini qoymuşdur.

2,16 hektar ərazidə inşa ediləcək "Park Forest Otel Ağdam" mehmanxanası 110 nömrədən ibarət olacaqdır. Mehmanxananın ərazisində əsas bina ilə yanaşı, konfrans mərkəzi, açıq havada üzgüçülük hovuzu, uşaq oyun meydançası, gəzinti yolları və istirahət zonaları yaradılacaqdır. Tikinti işlərinin 2024-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulmuşdur.



13
FEVRAL
2022

**Ağdamda yeni yaşayış kompleksinin təməl qoyulması**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdamda yeni yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak etmişdirlər. Prezident İlham Əliyev yaşayış kompleksinin təməlini qoymuşdur.

Ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binası inşa ediləcəkdir. Mənzillərin ümumi yaşayış sahəsi 21 min 921 kvadratmetr olacaqdır. Kompleksin tikintisinin 2023-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulmuşdur.





13
FEVRAL
2022

## Ağdam Cümə məscidində aparılan bərpa işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olmuşdurlar.

Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir. Bu məscid Ağdamın işğal altında olduğu müddətdə şəhərdə ermənilər tərəfindən dağıntıya nisbətən az məruz qalan yeganə tikilidir.

Cümə məscidinin bərpa-restavrasiya işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Layihənin icrası üçün Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti ilə müqavilə imzalanmışdır.

Bərpa işləri bütövlükdə tarixi görünüşə uyğun olaraq həyata keçiriləcəkdir.



13
FEVRAL
2022

## Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimində iştirak etmişdirlər. Prezident İlham Əliyev xəstəxananın təməlini qoymuşdur.

6 hektardan çox ərazidə inşa olunacaq tibb müəssisəsində qəbul, terapiya, kardiologiya, cərrahiyyə, travmatologiya-ortopediya, ürək-damar cərrahiyyəsi, oftalmologiya, LOR, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri və əməliyyat bloku fəaliyyət göstərəcəkdir. Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaqdır. Müalicə ocağı ən müasir tibbi avadanlıqlarla, həmçinin Regional Kardiocərrahiyyə Mərkəzi xidmətini təmin etmək üçün angioqrafiya cihazı ilə təchiz olunacaqdır. Binanın zirzəmi hissəsindən stasionar tibbi xidmət və sığınacaq kimi istifadə ediləcək, ehtiyac yaranarsa, dərhal hərbi hospital kimi fəaliyyət göstərəcəkdir.



13
FEVRAL
2022

## Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olmuşdurlar.

Ağdam şəhərində yerləşən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahı ən son innovativ texnologiyalar əsasında tikilmişdir. Bir hektar sahəni əhatə edən qərargahın ərazisində əsasən 6 komponent nəzərə alınmışdır. Bunlar yaşayış, inzibati, sağlamlıq, iaşə, müasir düşərgə idarəetmə sistemi və alternativ enerji sahələridir.

Qərargahda innovativ tikinti materiallarından istifadə olunmaqla, yüksəkkeyfiyyətli modul tipli isti və soyuğa davamlı, ekoloji fərdi yaşayış və inzibati binalar inşa olunmuşdur. Təhlükəsizliyin təmin edilməsi məqsədilə müasir kamera müşahidə məntəqəsi yaradılmış, açıq və qapalı idman zalları, futbol, basketbol və voleybol meydançaları, ilkin tibbi yardım məntəqəsi, müxtəlif tədbirlər üçün iclas zalı və avtomobil dayanacaqları tikilmişdir.

Qərargahda günəş və bioqaz enerjisindən istifadə sistemləri quraşdırılmış və daxili yollar müasir işıqlandırma sistemləri ilə təchiz edilmişdir. Ümumilikdə 3300 kvadratmetr sahədə salınmış yaşıllıq zolağında ilin hər fəslinə uyğun 30-dan çox növdə ağac və bitki kolları əkilmişdir. Yaşıllıqların suvarılması üçün 3500 metr avtomatlaşdırılmış damcılama və çiləmə sistemləri quraşdırılmışdır.

İnzibati ərazinin tam mərkəzində Bayraq Meydanı tikilmişdir. Meydanın ətrafı abadlaşdırılmış, günəş enerjisi ilə qidalanan işıq dirəkləri quraşdırılmışdır.





13
FEVRAL
2022

## Qarabağ xanlarının türbələri və yaşayış evi – İmarət kompleksinə baxış

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi – İmarət kompleksində olmuşdurlar.

XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindən olmaqla, iki binadan ibarətdir. Saray Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli yaşayış evi xüsusiyyəti daşımışdır. Buna görə də, Pənahəli xanın imarəti də adlandırılmışdır. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilmiş, vandalizmə məruz qalmış, tövlə kimi istifadə olunmuşdur.

Qarabağ xanları Pənahəli xanın, İbrahimxəlil xanın və Mehdiqulu xan Cavanşirin, eləcə də onların ailə üzvlərinin – Xan qızı, şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın, şair və ictimai xadim Cəfərqulu xan Cavanşirin, xeyriyyəçi, Şuşada Aşağı və Yuxarı Gövhər Ağa məscidlərini tikdirmiş Gövhərnisə bəyimin, şairə, "Məclisi-üns"ün iştirakçılarından olmuş Xanbikə xanımın qəbirləri burada yerləşir. Xan sarayının yaxınlığında yerləşən və Qarabağ xan nəslinin bir çox nümayəndələrinin dəfn edildiyi İmarət qəbiristanlığı da erməni vəhşiliyinə məruz qalmışdır.





**20 MART 2022**

## Suqovuşanda çəkilmiş müasir izolyasiyalı və mühafizəli kabel xəttinin təqdimatı

“Azərişıq” ASC tərəfindən Azərbaycanda ilk dəfə Tərtər rayonunun Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq müasir izolyasiyalı, kənar təsirlərdən mühafizəli və istismar xərcləri daha az olan kabel xəttinin təqdimatı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 20-də təqdimatda iştirak etmişdirlər.

Ölkədə ilk dəfə tətbiq edilən, müasir texnologiyalara əsaslanan 35 kilovoltluq izolyasiyalı və mühafizəli kabel elektrik veriliş xətləri ənənəvi hava elektrik xətlərinə nisbətən daha rentabelli və texniki baxımdan şəbəkələrin dayanıqlı işini təmin etmək üçün əlverişli innovativ həldir. Suqovuşan qəsəbəsinin elektrik enerji təchizatında tətbiq edilmiş 35 kilovoltluq kabel xətti məhz belə, müasir şəbəkə quruculuğu üçün əsas elementlərdən biridir. İzolyasiya olunmuş 35 kilovoltluq yeni tip xətlərin mühafizə zonası 3-6 metrdir və bu mövcud xətlərə nisbətən 6-10 dəfəyə qədər azdır. Mövcud naqillərdə texniki itkilər 9-12 faiz olduğu halda, müasir tipli izolyasiya olunmuş kabellərdə itkilər 3,5-4 faiz təşkil edir. Həmçinin şəbəkələrin saxlanma xərcləri 100 faizdən 30 faizə, illik mal-material sərfi 100 faizdən 25 faizə endirilir. İzolyasiya olunmuş kabellərdə qəza açılmalarının sayı və müddəti mövcud naqil xətləri ilə müqayisədə 60 faizədək azdır.





20 MART 2022

## Suqovuşan qəsəbəsindəki fərdi evdə aparılmış təmir-bərpa işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində fərdi evdə aparılmış təmir-bərpa işləri ilə tanış olmuşdurlar. 44 günlük Vətən müharibəsi zamanı, hərbi əməliyyatlar nəticəsində Tərtər rayonunun işğaldan azad edilmiş Suqovuşan qəsəbəsində 16 fərdi ev qismən yararsız vəziyyətə düşmüşdür. Bu evlərdən biri əsaslı təmir olunmuşdur.

Təmir olunan evin ümumi yaşayış sahəsi 92 kvadratmetrdir. Layihəyə əsasən ev 3 otaq, mətbəx və 2 sanitar qovşağından ibarətdir. Tikinti altında olan sahə isə 148 kvadratmetr təşkil edir. Fasadın əsas hissəsi dekorativ təbii daşla üzlənmişdir ki, bu da evin və yerləşdiyi ərazinin ahəngini tamamlayır. Fasadın qalan hissəsində isə suyadavamlı boya materialından istifadə olunmuşdur. Evin damı metal kirəmitlə örtülmüş, terrasa keramika döşənmiş, tavanı isə taxta materialdan hazırlanmışdır. Evin otaqları yüksək səviyyədə və müasir dizaynla bərpa olunmuşdur. Həyətyanı sahə abadlaşdırılmış, ərazidə ağaclar əkilmişdir. Fərdi evlərin yerləşdiyi məhəlləyə işıq və su xətləri çəkilmiş, yola asfalt örtüyü döşənmişdir.





20
MART
2022

## Suqovuşan qəsəbəsində 144 şagird yerlik tam orta məktəbin binasına baxış

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 20-də Suqovuşan qəsəbəsindəki 144 şagird yerlik tam orta məktəbin binasında olmuş, təhsil müəssisəsindəki vəziyyətlə maraqlanmışdırlar. Dövlətimizin başçısı məktəb binasının əsaslı təmirinə başlanılması barədə tapşırıq vermişdir.

Yararsız vəziyyətə düşmüş Suqovuşan qəsəbə tam orta məktəbinin binası Təhsil Nazirliyi tərəfindən təmir olunacaqdır. Məktəbin ərazisi 1 hektardır. Binanın ümumi sahəsi 820 kvadratmetrə yaxındır. Məktəb 12 sinif otağından, 60 nəfərlik akt zalından və kitabxanadan ibarətdir. Dördmərtəbəli binanın fasadının ətrafdakı fərdi evlərə uyğunlaşdırılacağı nəzərdə tutulmuşdur. Fasadda fərdi evlərdə olduğu kimi, dekorativ təbii daşlardan istifadə ediləcəkdir. Məktəbdə müasir standartlara uyğun idman meydançası qurulacaq, həyətyanı sahə abadlaşdırılacaqdır.





20
MART
2022

## Suqovuşan qəsəbəsində yeni məscidin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin təməlini qoymuşdurlar.

Ümumi ərazisi 0,6 hektar olan kompleksə məscid binası, köməkçi bina, dəstəmaz otağı və avtodayanacaq daxildir. İki mərtəbədən ibarət olacaq məscid binasının uzunluğu 16,8 metr, eni isə 11,2 metr təşkil edəcəkdir. Burada kişilər və qadınlar üçün ibadət zalının olması planlaşdırılmışdır. Layihəyə əsasən məsciddə eyni vaxtda 110 nəfərin ibadət etməsi üçün şərait yaradılacaqdır.







**20**
**MART**
**2022**

## Müdafiə Nazirliyinin Suqovuşanda "N" saylı hərbi hissəsinin açılış mərasimi

Tərtər rayonunun Suqovuşan qəsəbəsində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 20-də açılışda iştirak etmişdirlər.

Hərbi hissənin ərazisində nəzarət-buraxılış məntəqəsi, qərargah binaları, əsgər yataqxanaları, tibb məntəqəsi, qazanxanalar, mağaza, 174 nəfərlik yeməkxana binası yaradılmışdır. Hərbi hissənin qərargah binasında hərbçilər üçün bütün zəruri avadanlıqla təchiz edilən iş otaqları vardır. Əsgər yeməkxanası da müasir səviyyədədir.





**20**
**MART**
**2022**

## Suqovuşanda turizm kompleksinin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməlqoyma mərasimində iştirak etmişdirlər. Prezident İlham Əliyev kompleksin təməlini qoymuşdur. Dövlətimizin başçısı və birinci xanım kompleksin ərazisində ağac əkmişdirlər.

Ərazinin minalardan təmizlənməsindən, dağıdılmış tikililərin qalıqlarının yığışdırılmasından, çoxillik bitkilərin budanmasından sonra burada abadlıq işlərinə başlanılacaq və əraziyə uyğun bitkilər əkiləcəkdir. Ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilən Suqovuşan su anbarı ətrafında yaradılacaq kompleksdə sahilboyu gəzinti cığırları salınacaq, oturacaqlar, söhbətgahlar quraşdırılacaqdır. Həmçinin burada turistlərə xidmət göstərəcək 40 nəqliyyat vasitəsi üçün avtodayanacaq, turizm məlumat mərkəzi və ictimai iaşə obyekti yaradılacaqdır.







20
MART
2022

## Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılış mərasimi

Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər rayonunun Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 20-də açılış mərasimində iştirak etmişdirlər.

Prezident İlham Əliyev təlim-məşq toplantısının rəsmi açılışını bildirən düyməni sıxandan sonra qarşı tərəfdəki metal konstruksiyadan “Qarabağ Azərbaycandır!” yazısı əks olunmuş banner açılmış, səmaya 7 min hava şarı buraxılmış və ardınca idmançılar məşq prosesinə başlamışdırlar.

Dövlətimizin başçısı və birinci xanım məşq prosesini və bayraq şousunu izləmişdirlər.  Prezident İlham Əliyev xatirə hədiyyəsini imzalamış və Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasına təqdim etmişdir.



**20**
**MART**
**2022**

## Suqovuşanda bayram tonqalı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində bayram tonqalı alovlandırmışdırlar.

Dövlətimizin başçısı Azərbaycan xalqını işğaldan azad edilmiş Qarabağdan Novruz bayramı münasibətilə təbrik etmişdir.



**06**
**APREL**
**2022**

## Brüsselə işgüzar səfər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə aprelin 6-da Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfər etmişdir. Səfər zamanı Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü olmuşdur.

Görüşdə Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Ermənistanla Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşması prosesinə verdiyi töhfəsini yüksək qiymətləndirmiş və ötən ilin dekabrında keçirilmiş üçtərəfli görüşdə müəyyən edilmiş Brüssel sülh gündəliyinin əhəmiyyətini vurğulamışdır. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bu çərçivədə Azərbaycan və Ermənistan arasında aparılan dialoqun əhəmiyyətini qeyd etmişdir. Tərəflər Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan tərəfinin iştirakı ilə keçiriləcək üçtərəfli formatda görüşün nəticəyönümlü olacağına ümidvarlığını ifadə etmişdirlər.



**06**
**APREL**
**2022**

## Brüsseldə üçtərəfli görüş

Aprelin 6-da Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə işçi nahar formasında görüşü olmuşdur. Görüş 4 saatdan artıq davam etmişdir.

Görüşün əsas müzakirə mövzusu münasibətlərin tənzimlənməsi və ya sülh danışıqlarının başlanması üçün Ermənistan və Azərbaycanın təklif etdiyi bəndlər, əsirlərin qaytarılması və itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi, regional kommunikasiyaların açılması məsələləri, sərhədlərin delimitasiyası və təhlükəsizliyi üzrə ikitərəfli komissiyanın işə başlaması məsələləri olmuşdur. Görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ölkələrinin xarici işlər nazirlərinə sülh danışıqlarına hazırlığa başlamağı tapşırmışdırlar.





21
APREL
2022

## Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Füzuli rayonunda Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri tanış olmuşdur.

Ümumi sistemə daxil olan "Köndələnçay-1", "Köndələnçay-2" və "Aşağı Köndələnçay" su anbarlarının bərpası ilə Füzuli rayonu ərazisində 6200 hektar əkin sahəsinin suvarılması mümkün olacaqdır.




**21**
**APREL**
**2022**

## Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin tikintisi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası ilə tanış olmuşdur.

Qarabağın dirçəlişinə aparan “Böyük Qayıdış” proqramının əsas tərkib hissələrindən biri yol infrastrukturunun qurulmasıdır. Şuşaya çəkilən Zəfər yolunun cığırı qəhrəman əsgər və zabitlər tərəfindən açılmışdır. Hazırda bu yolda işlər davam etdirilir. Burada məqsəd Şuşaya avtomobillə daha tez və rahat çatmaqdır. 10 ay əvvəlki vəziyyətlə hazırkı mərhələni müqayisə etdikdə mübaliğəsiz demək olar ki, dünyada bu sürət və keyfiyyətdə görülən işlərə rast gəlmək mümkün deyildir.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun digər önəmi onun Zəngəzur dəhlizinin magistralı ilə birləşməsindədir. Yolun uzunluğu 81,6 kilometr, hərəkət zolaqlarının sayı 4-6, hərəkət zolağının eni isə 3,5 metrdir. Yolboyu 7 tunelin tikintisi aparılır. Bir neçə tuneldə qazma işləri artıq tamamlanmış, digərlərində isə qazma, partlatma və qırma üsulları ilə qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam edir. Bundan başqa, tunellərdə havalandırma və izolyasiya sistemləri də quraşdırılır. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tunellərin inşası ilə yanaşı, yolboyu müxtəlif hissələrdə torpaq yatağının, körpülərin, yeraltı keçid və suötürücü boruların tikintisi də layihəyə uyğun şəkildə icra olunur. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.



**21**
**APREL**
**2022**

## Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olmuşdur.

Aparılan kompleks işlər çərçivəsində Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması üçün bərpa-quruculuq işləri sürətlə davam etdirilir.

Dövlətimizin başçısı Şuşa şəhərində tullantıların idarə olunması poliqonunda gedən işlərlə tanış olmuşdur. Burada məişət tullantıları Avropa standartlarına uyğun xüsusi yeraltı konteynerlərdə yerləşdiriləcəkdir. Poliqonda 4 çeşid üzrə 600 ədəd SMART yeraltı konteyner və 11 ədəd xüsusi texnika nəzərdə tutulmuşdur. Ərazidə söküntü materiallarının çeşidlənməsi də aparılacaqdır. Şəhərin su təchizatı sisteminin dayanıqlığının təmini də iki mərhələdə paralel layihələrlə həyata keçiriləcəkdir.

Prezident İlham Əliyev Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının da tikintisi ilə tanış olmuşdur. Hazırda binada işlər tamamlanmaq üzrədir. Şəhərin arxitekturasına uyğun tikilən binada hər cür şərait yaradılacaqdır.





**22**
**APREL**
**2022**

## Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı

Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı aprelin 22-də Şuşa şəhərində işə başlamışdır. Aprelin 23-də başa çatan Zəfər Qurultayında 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonaq iştirak etmişdir.

Qurultayın açılışında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurultayda geniş nitq söyləmiş və qurultay iştirakçılarını səmimiyyətlə salamlamışdır. Dövlətimizin başçısının nitqindən sonra qurultay işini “Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr, fəaliyyət planı/yol xəritəsi” və “Qarabağın bərpası və yenidən qurulmasında Azərbaycan diasporunun töhfələri” mövzusunda panel iclasları ilə davam etdirmişdir.



28
APREL
2022

## "Cənubi Qafqaz: inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans

ADA Universiteti tərəfindən "Cənubi Qafqaz: inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Aprelin 28-29-da keçirilən və 23 ölkədən 40 iştirakçının qatıldığı konfransın əsas müzakirə mövzusu Qarabağın tarixi, azadlıq müharibəsinin nəticələri, regional inteqrasiya, təhlükəsizlik və inkişaf məsələlərinə aid çağırışlar olmuşdur. "Cənubi Qafqaz: inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransın ideyası ötən il aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda yaranmışdır. Həmin konfransda iştirakçılar Qarabağda beynəlxalq konfransın keçirilməsini təklif etmiş və Prezident İlham Əliyev bu təklifi müsbət qiymətləndirmişdir.

Konfrans öz işinə aprelin 28-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində başlamışdır. Şuşaya səfər zamanı qonaqlar azad edilmiş Qarabağda bir sıra mühüm yenidənqurma və inkişaf layihələri, o cümlədən Füzulidəki hava limanı və yeni Zəfər yolu ilə tanış ola, həmçinin erməni işğalından sonra miras qalan bəzi barbar dağıntıları görə bilmişdirlər.

Konfransın 2-ci günü aprel ayının 29-da ADA Universitetində davam etmiş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də konfransda iştirak etmişdir. Konfransda çıxış edən ölkə rəhbəri ilk öncə ADA Universitetinin rəhbərliyinə konfransın təşkilinə görə, ölkəmizə və Şuşaya səfər etdiklərinə görə isə bütün iştirakçılara dərin təşəkkürünü bildirmişdir. Çıxışı zamanı Prezident İlham Əliyev bu yaxınlarda Ermənistandan müsbət cavab aldıqlarını, Azərbaycanın irəli sürdüyü 5 təməl prinsipin Ermənistan tərəfindən qəbul edildiyini və Ermənistanın sərhədlərin delimitasiya prosesinə başlamaq üçün Azərbaycanla birgə işçi qrupun yaradılmasına razılıq verdiyini demişdir. Dövlət başçısı həmçinin bildirmişdir ki, əgər sülh müqaviləsi imzalanarsa və həmin təməl prinsiplər həyata keçərsə, o zaman Qafqazda sülh uzunmüddətli və dayanıqlı olacaqdır.





**10**
**MAY**
**2022**

## Füzuli şəhər Peşə Liseyinin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuli şəhər Peşə Liseyinin təməlinin qoyulması mərasimində iştirak etmişdirlər. Dövlətimizin başçısı peşə liseyinin təməlini qoymuşdur.

Peşə liseyinin ərazisi 3,2 hektar sahəni əhatə edəcəkdir. Kompleksdə tədris binaları, laboratoriya, idman zalı və meydançası yaradılacaqdır. Burada, həmçinin avtomobil təmiri emalatxanası, avadanlıq və texnika, təsərrüfat anbarları, təsərrüfat qurğusu, praktik təlimlər qurğusu da inşa ediləcəkdir. Kompleksin elektrik enerjisi ilə fasiləsiz təminatı üçün transformator yarımstansiyası quraşdırılacaqdır. Füzuli şəhər Peşə Liseyinin inşası zamanı yaşıllıq zolaqlarının yaradılması xüsusilə diqqətdə saxlanılmışdır. Yaşıllıq sahəsi bu kompleksin ərazisinin 43,7 faizini təşkil edəcəkdir. Burada yaradılacaq idman meydançasının sahəsi 540 kvadratmetr olacaqdır. Lisey ildə 800-ə yaxın tələbə qəbul etməklə yanaşı, 1000-dək tələbə üçün qısamüddətli kurslar və ömürboyu təhsil proqramları təmin etmək imkanında olacaqdır.



**10 MAY 2022**

## Füzuli şəhərində Mərkəzi Park Kompleksində aparılan işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuliyə səfərləri çərçivəsində şəhərdə yeni yaradılacaq Mərkəzi Park Kompleksinin ərazisində aparılan işlərlə tanış olmuşdurlar və parkda ağac əkmişdirlər.

İşğaldan azad olunmuş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri bu yerlərə yenidən həyat verir, ermənilərin ekoloji sistemə vurduqları zərərin nəticələri aradan qaldırılır. Füzulidə yeni yaradılacaq park kompleksi də məhz bu istiqamətdə atılan addımlardan biridir.





10
MAY
2022

## Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak etmişdirlər. Prezident İlham Əliyev xəstəxananın təməlini qoymuşdur.

Xəstəxanada əsasən üç bölmənin – inzibati, stasionar və ambulator xidmət bölmələrinin yaradılması nəzərdə tutulmuşdur. Stasionar xidmət bölməsindəki qəbul mərkəzində 40 çarpayılıq terapiya, o cümlədən kardiologiya və nevrologiya şöbələri fəaliyyət göstərəcəkdir. Burada, həmçinin cərrahiyyə, travmatologiya-ortopediya, LOR, əməliyyat bloku, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya və hemodializ şöbələri yaradılacaqdır. Ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaqdır. Müalicə ocağı maqnit rezonans tomoqrafiya və digər ən müasir tibbi avadanlıqla təmin olunacaqdır. Xəstəxana binasının zirzəmisi zəruri hallarda sığınacaq və hərbi hospital təyinatına malik strukturda inşa ediləcəkdir.






**10**
**MAY**
**2022**

## Şuşadakı inzibati binada və “Şirin su” hamamında aparılan bərpa işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşa şəhərindəki inzibati binada aparılan son tamamlama və binanın ətrafında həyata keçirilən abadlıq işləri ilə tanış olmuşdurlar.

Həmçinin Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşadakı “Şirin su” hamamında aparılan bərpa işləri ilə tanış olmuşdurlar. Tarixi “Şirin su” hamamında bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Milli memarlıq ənənələrini özündə əks etdirən hamamın birmərtəbəli binası plan kompozisiyasına görə düzbucaqlı formadadır. Şəhərin Mərdinli məhəlləsində yerləşən, 1880-ci ildə inşa edilən “Şirin su” hamamı ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısındadır. Hamam tarixi görkəmi qorunub saxlanılmaqla bərpa ediləcəkdir.





10
MAY
2022

## Tarzən Sadıqcanın Şuşadakı evinin bərpası işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşada məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evin bərpası işləri ilə tanış olmuşdurlar.

Şuşa şəhərinin mərkəzində, Mərdinli məhəlləsində yerləşən bina ilkin görkəmini 80 faizə qədər itirmişdir. Binanın qalan hissələrində isə konstruktiv çatlar müşahidə olunur və qəza vəziyyətindədir.

Sadıqcanın evində bərpa işlərini Heydər Əliyev Fondu həyata keçirəcəkdir. Dördbucaqlı plan quruluşu olan ev ikimərtəbəlidir. Bina Şuşaya xas memarlıq üslubunda inşa olunmuşdur.





10
MAY
2022

## Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşada Mehmandarovların malikanə kompleksində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri ilə tanış olmuşdurlar.

İşğal dövründə ciddi ziyan dəyən, ermənilər tərəfindən dağıntılara məruz qalan malikanə kompleksində mütəxəssislər qiymətləndirmə işləri aparmışdırlar və bunun əsasında bərpa prosesi icra olunur. Kompleksə məscid, kiçik və böyük yaşayış evləri daxildir. Ötən müddətdə evin dam örtüyü orijinala uyğun quraşdırılmış, binanın tökülmüş bütün daşları, eyvanları, həmçinin kompleksə daxil olan məscidin uçmuş günbəzləri, damı və mehrabı bərpa edilmişdir. Kompleksin həyətində bulağın bərpası yekunlaşmış, landşaft işlərinə hazırlıq görülmüşdür.





**10 MAY 2022**

## "Shusha Boutique Hotel"in yerləşəcəyi əraziyə baxış

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşaya səfərləri zamanı "Shusha Boutique Hotel"in yerləşəcəyi ərazidə olmuşdurlar.

Şuşanın bərpası konsepsiyasında şəhərin turizm potensialı nəzərə alınaraq buna uyğun infrastruktur yaradılır. Butik otel şəhərin Köçərli küçəsindəki binada yerləşəcəkdir. Burada 13 otaq və kiçik restoran qonaqların ixtiyarına veriləcəkdir.





**10 MAY 2022**

## Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə tanış olmuşdurlar.

Fəaliyyətə 1881-ci il sentyabrın 20-də başlayan Şuşa Realnı Məktəbi həm tədrisi, təhsil ənənələri, həm də yetişdirdiyi görkəmli şəxsiyyətlərlə bütün Cənubi Qafqazda seçilən təhsil ocaqlarından biri idi. Əvvəlcə 6 sinifdən ibarət olan və 159 şagirdi qəbul edən məktəbin Haşım bəy Vəzirov, Mirzə Salah bəy Zöhrabbəyov, Yusif bəy Məlikhaqnəzərov kimi pedaqoqları, İsmayıl bəy Səfibəyov, Əbdürrəhman bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Cabbar bəy Vəlibəyov, Xudadat bəy Məlik-Aslanov, Cavad bəy Məlik-Yeqanov, Rüstəm bəy Axundov, Əhməd bəy Ağaoğlu, Soltan bəy Vəlibəyov, Xan Şuşinski kimi parlaq yetirmələri olmuşdur.





**10**
**MAY**
**2022**

## Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Şuşa şəhərində "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir. Dövlətimizin başçısı Rəqəmsal İdarəetmə Mərkəzini işə salmışdır. İstifadəyə verilən Rəqəmsal İdarəetmə Mərkəzi şəhərin dayanıqlı və keyfiyyətli enerji ilə təchizatı baxımından əhəmiyyətli hadisədir. Ənənəvi üçpilləli 35/10-6/0,4kV-luq paylayıcı elektrik şəbəkələrinin yerinə Şuşada qurulan yeni dairəvi elektrik təchizat sxemi müasir dərin girişli ikipilləli 35/0,4kV-luq şəbəkələrlə əvəz edilmişdir.

İlk dəfə Şuşada tətbiq edilən 35/0,4 kV-luq şəbəkələrin Rəqəmsal İdarəetmə Mərkəzi digər yarımstansiyalarla dairəvi əlaqələndirilmə imkanlarına malik olaraq Şuşa şəhərinin dayanıqlı və fasiləsiz elektrik enerjisi təchizatını təmin edir. Elektroenergetika sahəsində ilk dəfə olaraq, Şuşa Rəqəmsal İdarəetmə Mərkəzi yarımstansiyanın qəza hallarında enerji təchizatının təmin edilməsi və yarımstansiyanın xüsusi sərfiyyat tələbatının kompensasiyası üçün alternativ və bərpaolunan enerji mənbəyindən istifadə tətbiq edilmiş, texniki-iqtisadi göstəricilər yüksəldilmiş, avadanlıqların fasiləsiz qidalandırılması təmin olunmuşdur.






12
MAY
2022

## V “Xarıbülbül” Beynəlxalq Folklor Festivalının açılış mərasimi

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V “Xarıbülbül” Beynəlxalq Folklor Festivalının açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 12-də festivalın açılışında iştirak etmişdirlər.

Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən “Şuşa İli”ndə keçirilən V “Xarıbülbül” Beynəlxalq Folklor Festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil olunmuşdur. Mayın 14-də başa çatan sayca beşinci festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılmışdırlar.



**22 MAY 2022**

## Brüsseldə ikitərəfli görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə mayın 22-də Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfər etmişdir. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü olmuşdur.

Görüş zamanı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün Azərbaycan tərəfindən beynəlxalq hüquqa əsaslanan 5 prinsipin təqdim olunduğunu qeyd edən Prezident İlham Əliyev bu il aprelin 6-da Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında keçirilmiş görüşün nəticələrinə uyğun olaraq, Azərbaycanın aprelin sonunda sülh müqaviləsi üzrə danışıqlara başlamaq üçün İşçi Qrupunun tərkibini, həmçinin sərhədlərin delimitasiyası üzrə milli komissiyanın tərkibini müəyyənləşdirdiyini və bu xüsusda danışıqlara hazır olduğunu vurğulamışdır. Prezident İlham Əliyev, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə mina problemi və Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan 4 minə yaxın şəxsin taleyinə aydınlıq gətirilməsinin vacibliyini bir daha qeyd etmişdir. Dövlətimizin başçısı iki ölkə arasında sülh müqaviləsinin hazırlanması prosesinin sürətli şəkildə həyata keçiriləcəyinə ümidvar olduğunu və 10 noyabr Bəyanatının bütün müddəalarının Ermənistan tərəfindən icra olunmasının zəruriliyini bildirmişdir.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Avropa İttifaqının Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinə dəstək vermək əzmini bir daha ifadə etmiş, vasitəçilik səylərini davam etdirəcəyini bildirmiş və bu formatda keçirilmiş əvvəlki görüşlərin əhəmiyyətinə toxunmuşdur.



22
MAY
2022

## Brüsseldə üçtərəfli görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə mayın 22-də Brüsseldə görüşü olmuşdur.

Müzakirə nəticəsində regional kommunikasiyaların açılması üzrə işlərin gələcək gedişi və sərhəd komissiyalarının işinə başlanması barədə razılıqlar əldə olunmuşdur. İki ölkə arasında münasibətlərin normallaşdırılması üzrə danışıqlar prosesinə hazırlıq və humanitar məsələlər müzakirə olunmuşdur. Üçtərəfli görüşlərin davam etdirilməsi ilə bağlı razılıq əldə olunmuş, oxşar görüşün önümüzdəki aylarda da keçirilməsi nəzərdə tutulmuşdur.






**26 MAY 2022**

## Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikinti işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli rayonuna səfər çərçivəsində Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi ilə tanış olmuşdurlar.

Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan və ümumi uzunluğu 123,6 kilometr olan bu yolun tikintisi sürətlə davam etdirilir. Başlanğıcını Füzuli rayonunun Əhmədbəyli kəndindən götürən bu yol birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 77 kilometrlik hissəsi altı, qalan 46,6 kilometrlik hissəsi isə dörd hərəkət zolaqlı olacaqdır. Yol boyunca üç avtomobil tuneli inşa edilir. Tunellərdən birində qazma işləri artıq yekunlaşmış, hazırda beton işləri icra olunur. Digər iki tuneldə isə qazma işləri davam etdirilir. Həmçinin bu yolun üzərində 15 avtomobil körpüsü, 5 yolötürücü və 54 yeraltı keçidin inşası nəzərdə tutulmuşdur. Hazırda 14 körpü, 3 yolötürücü və 38 yeraltı keçidin tikintisi aparılır.

Yolun ilk 110 kilometrlik hissəsində torpaq işləri icra edilir. Yolun genişləndirilərək profilə salınması, birinci texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası və paralel olaraq asfalt örtüyünün salınması həyata keçirilir. Tikinti işlərinin 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.





**26 MAY 2022**

## “Soltanlı” stansiyasının təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonu ərazisində “Soltanlı” stansiyasının təməlqoyma mərasimində iştirak etmişdirlər. Prezident İlham Əliyev “Soltanlı” stansiyasının təməlini qoymuşdur.

Təkxətli dəmir yolunun uzunluğu 110,4 kilometrdir. Layihəyə əsasən yol boyunca 9 stansiyanın (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd), 3 tunelin, 41 körpünün, 7 yolötürücünün, 300-ə yaxın süni mühəndis qurğusunun, rabitə və işarəvermə sisteminin, elektrik təsərrüfatının tikintisi planlaşdırılır. Yol boyunca 85 kilometr ərazi minalardan təmizlənmişdir və bu proses davam edir. Dəmir yolu xəttinin yan yollarla birlikdə 60 kilometrlik hissəsi tamamlanmışdır. Bu məsafədə yük qatarları hərəkət edir. Tikinti işləri Türkiyənin “Kalyon RSY İnşaat Adi Ortaklığı Ticari İşletmesi” şirkəti tərəfindən həyata keçirilir. Layihənin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.





**26**
**MAY**
**2022**

## "Cəbrayıl" enerji qovşağının təməl qoyulması

"Azərenerji" ASC-nin 330/110 kilovoltluq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da mərasimdə iştirak etmişdirlər. Prezident İlham Əliyev "Cəbrayıl" enerji qovşağının təməlini qoymuşdur.

"Cəbrayıl" enerji qovşağının inşası nəticəsində Qarabağ və Şərqi Zəngəzurun yeni yaradılmış ötürücü elektrik şəbəkəsinin etibarlılığı və dayanıqlılığı artırılacaqdır. İkinci mərhələdə Naxçıvanın ölkənin əsas enerji sistemi ilə əlaqələndirilməsi üçün "Cəbrayıl" qovşaq yarımstansiyasından Zəngəzur dəhlizini keçməklə Naxçıvan Muxtar Respublikasının Şahtaxtı kəndinə 255 kilometr məsafədə ikidövrəli olmaqla 330 kilovoltluq ötürmə xətti çəkiləcək və 330 kilovoltluq "Şahtaxtı" yarımstansiyası tikiləcəkdir. Üçüncü mərhələdə isə Azərbaycan, Naxçıvan, Türkiyə və Avropa enerji qovşağının yaradılması üçün Naxçıvanın Türkiyəyə yaxın ərazisində 330 kilovoltu 400 kilovolta keçirtmək üçün Avropa enerji standartlarına uyğun əlavə çevirici yarımstansiya inşa ediləcək və Naxçıvandan Türkiyəyə 230 kilometr məsafədə ikidövrəli 400 kilovoltluq elektrik verilişi xətti çəkiləcəkdir.

"Cəbrayıl" yarımstansiyasının rəqəmsal idarəetmə sistemi yaradılacaqdır. Yarımstansiyada 330 və 110 kilovoltluq açıq, 10 kilovoltluq qapalı paylayıcı qurğular və müasir idarəetmə mərkəzi inşa olunacaqdır. Mövcud layihələrin yarımstansiyaya inteqrasiyası ilə bərabər, gələcəkdə burada genişlənmə imkanları nəzərə alınmaqla əlavə əsas və köməkçi qurğuların yerləşməsi də nəzərə alınacaqdır.



**26 MAY 2022**

## Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Zəngilan rayonuna səfər çərçivəsində Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdurlar.

Hava limanının perronunda torpaq işləri tamamlanmış və uçuş-enmə zolağında asfalt-beton işləri davam edir. Zolağın uzunluğu 3000 metr, eni isə 60 metr olacaqdır. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul edəcəkdir.

Aeroportun hava hərəkəti qülləsinin tikintisinin iyulda tamamlanması planlaşdırılmışdır. Avqustun sonunda terminal binasında işlərin başa çatdırılması nəzərdə tutulmuşdur. Beynəlxalq standartlara uyğun inşa edilən terminal binası saatda 200 sərnişinə xidmət edəcəkdir. Terminal daxilində VIP zallar, kafelər, tibb xidməti və ofis otaqları yaradılacaqdır. Avadanlıq və materiallar İtaliya, Almaniya və Türkiyədən gətirilmişdir.




26
MAY
2022

## Zəngilan məscidində aparılan tikinti işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidində tikinti işlərinin gedişi ilə tanış olmuşdurlar.

Zəngilan məscidinin bərpasının təməl daşı dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə ötən il aprelin 26-da qoyulmuşdur. Burada bərpa işləri fasiləsiz olaraq həyata keçirilməkdə davam edir.




26
MAY
2022

## Zəngilanda İşğal və Zəfər muzeyləri kompleksinin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak etmiş və təməlini qoymuşdurlar.

Zəngilan İşğal və Zəfər muzeyləri kompleksi layihəsinin əsas məqsədi müharibənin ətraf mühitə dağıdıcı təsirləri barədə məlumatlılığı artırmaqdır. Layihə hazırlanarkən dayanıqlılığın müxtəlif aspektləri həm landşaft, həm də bina dizaynı üçün nəzərə alınmış və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq hədəflənmişdir.

Zəngilan İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntıları əks etdirən Memorial Parkdan ibarət olacaqdır.





**26**
**MAY**
**2022**

## Zəngilan şəhərinin Baş planı ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Zəngilan şəhərinin Baş planı ilə tanış olmuşdurlar.

Baş plan bu sahədə böyük təcrübəyə malik nüfuzlu beynəlxalq şəhərsalma qrupu - İsveçrənin "sa_partners" şirkəti tərəfindən yerli mütəxəssislərin iştirakı ilə hazırlanmışdır. Layihəyə əsasən, Zəngilan şəhəri beynəlxalq əhəmiyyətli Zəngəzur nəqliyyat dəhlizi ilə sıx əlaqələri olan strateji əhəmiyyətli yaşayış məntəqəsi kimi inkişaf etdiriləcəkdir. Araz vadisinin yaxınlığında, həm Zəngəzur nəqliyyat dəhlizindən, həm də Zəngilan Beynəlxalq Hava Limanından cəmi 10 kilometr məsafədə yenidən qurulacaq şəhər, yaradılacaq əhəmiyyətli nəqliyyat şəbəkəsini müasir infrastrukturu ilə tamamlayacaqdır. Şəhərin strateji əhəmiyyəti nəzərə alınaraq Baş planda Zəngilanın beynəlxalq nəqliyyat dəhlizi ilə əlaqəsi olan logistika, turizm və ticarət mərkəzi, bərpaolunan enerji məkanı kimi inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Baş planın konseptual əsasını "rahat yaşayış", "yaşıl və təmiz", "mütərəqqi innovasiyalar" kimi şəhər yanaşmaları təşkil edir.






**27**
**MAY**
**2022**

## Zəngilan rayonunda intensiv meyvə bağı ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 27-də Zəngilan rayonunda intensiv meyvə bağı ilə tanış olmuşdurlar.

Burada 40 hektar sahədə intensiv ərik bağı salınmışdır. Hər biri 10 hektar olmaqla 4 çeşiddə ting əkilmişdir. Tinglərdən ikisi İspaniya çeşididir, ikisi isə yerli növdür. Gələcəkdə burada 60 hektar sahədə nektarin bağının salınması nəzərdə tutulmuşdur.

İntensiv meyvə bağında yetişdirilən məhsulu saxlamaq və çeşidləmək üçün Zəngilan Logistika Mərkəzi tikiləcəkdir. Mərkəzdə tutumu 5 min ton olan 36 soyuducu kameradan ibarət saxlama anbarı, yetişdirmə kameraları, avtomatlaşdırılmış terminallar, qablaşdırma, çeşidləmə, tərəzi sahələri, yükdaşıma, nəqliyyat parkı və ofis binası yaradılacaqdır.





**27**
**MAY**
**2022**

## “Ağıllı kənd” layihəsində “Göyərçin” abidə-fəvvarə kompleksinin işə salınması

Zəngilan rayonunun Ağalı kəndində “Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 27-də mərasimdə iştirak etmişdirlər.

Dövlətimizin başçısı və birinci xanım Ağalı kənd meydanı ilə tanış olmuşdurlar. Kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalmış əzəli torpaqlarımızda sülhün əbədi təmin olunmasını təcəssüm etdirən “Göyərçin” abidə-fəvvarə kompleksi yaradılmışdır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fəvvarəni işə salmışdırlar.






**27**
**MAY**
**2022**

## "Ağıllı kənd"də Dövlət Xidmətləri Mərkəzi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 27-də "Ağıllı kənd" meydanında yaradılmış Dövlət Xidmətləri Mərkəzi ilə tanış olmuşdurlar.

Burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərəcəkdir. Burada məqsəd kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışını təmin etməkdir. Bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsi üzrə 100-dən çox xidmət onlayn formada göstəriləcəkdir. Vətəndaş birbaşa video bağlantı ilə "DOST" mərkəzlərinin sosial agentinə müraciət edəcək və müraciəti yerindəcə həll olunacaqdır.





27
MAY
2022

## “Ağıllı kənd”də ictimai iaşə obyektləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 27-də Ağalı kənd meydanında “Kapital Bank” ASC-nin Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai iaşə obyektləri ilə tanış olmuşdurlar.

Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunmuşdur. Küçələrin “ağıllı” işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması, bioqaz enerjisindən istifadə kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənddə tikilmiş üçotaqlı evlərin birinə baxış keçirmişdirlər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kəndində “Gillmed” tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), birmərtəbəli 60 yerlik uşaq bağçası və 360 şagird yerlik ikimərtəbəli kənd orta məktəbi binası ilə, “Aqroservis” ASC tərəfindən təqdim edilən “ağıllı kənd təsərrüfatı” texnikaları ilə, “Arximed” tipli hidroelektrik stansiya, alternativ enerjinin istehsalı üçün süni göl və 62 nömrədən ibarət otel kompleksində aparılan işlərlə tanış olmuşdurlar.




**16**
**İYUN**
**2022**

## "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə iyunun 16-da "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumu keçirilmişdir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq mərkəzdir. Mərkəzin Bakıda təşkil etdiyi "Qlobal dünya nizamına təhdidlər" mövzusuna həsr olunan Qlobal Bakı Forumunda 50-dən çox ölkənin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişdirlər.

Forumun açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş nitq söyləmişdir. İlk öncə Forum iştirakçılarını salamlayan Prezident İlham Əliyev qlobal dünya nizamını təhdid edən mühüm təhlükəsizlik problemlərinə toxunduqdan sonra İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad olan torpaqlarımızda aparılan dirçəliş prosesi barədə danışmışdır.

Çıxışı zamanı regionda müharibədən sonrakı vəziyyətə, Qafqazda regional təhlükəsizliklə bağlı məsələlərə də diqqət çəkən Prezident İlham Əliyev Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyasının və kommunikasiya xətlərinin, xüsusilə də Zəngəzur dəhlizinin açılmasının regional sülhün fundamental elementlərindən olduğunu və bu gün sülh, əməkdaşlıq yaratmaq üçün bütün şərtlərin və fürsətlərin mövcud olduğunu bildirmişdir.




26
İYUN
2022

## Göygöl rayonunda inşa edilən tunellərin tikintisi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı Göygöl rayonunda Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi ilə tanış olmuşdur.

Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolu 2-4 hərəkət zolaqlı olmaqla I, II və III texniki dərəcəyə uyğun inşa edilmişdir. Yolun keçdiyi ərazinin sərt dağlıq və qayalıq olması nəzərə alınaraq, onun əsas hissəsinin ikizolaqlı, yoxuşlarda isə əlavə zolaq artırılmaqla tikintisi aparılmışdır. Bu yol tunel və körpü hissələrdə dörd hərəkət zolaqlı olacaqdır. Yolboyu torpaq yatağının, həmçinin zəruri yerlərdə suötürücülərin tikintisi davam edir. İki hissədə mövcud kanalların köçürülməsi, həmçinin bəzi ərazilərdə suötürücülərin inşası tamamlanmışdır və yeni su kanalının tikintisi davam etdirilir.

Layihənin 13,5-ci kilometrindən Murovdağ silsiləsi başlayır. Yüksəklik 1700 metrdən Murovdağ zirvəsinədək 3250 metrədək artır. Bu hissədə dünyanın ən uzun avtomobil tunellərindən biri olacaq Murovdağ tunelinin inşası davam etdirilir. Artıq tuneldə gediş və gəliş istiqaməti üzrə 2,1 kilometr uzunluğunda qazma işləri tamamlanmışdır.

Tunel müvəqqəti havalandırma sistemi ilə təmin edilmişdir. Piyadalar və avtomobillər üçün nəzərdə tutulan iki ehtiyat keçidinin tikintisi yekunlaşmışdır. Hazırda tuneldə partlatma və qırma prosesləri nəticəsində əmələ gələn qaya parçalarının və süxurların daşınması, lay sularının kənarlaşdırılması və tuneldaxili hissənin üzlənməsi işləri davam etdirilir.

Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi layihəsi çərçivəsində Murovdağ tunelindən əlavə, daha üç tunelin inşası nəzərdə tutulmuşdur. Uzunluğu 542, eni 12 metr olan birinci və uzunluğu 607 metr olan ikinci tuneldə tikinti işlərinə başlanılmışdır. Artıq birinci tuneldə üst qatda qazma işləri icra olunaraq tuneldaxili hərəkət təmin edilib. İkinci tuneldə isə üst qatda qazma işləri tamamlanmaq üzrədir. Tikintisi 2025-ci ilədək yekunlaşdırılması nəzərdə tutulan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir.






**26**
**İYUN**
**2022**

## "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda yeni tikilmiş 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının (KSES) açılışında iştirak etmişdir.

Lev çayı üzərində inşa olunan stansiya işğaldan azad edildikdən sonra Kəlbəcərdə tikilərək istismara verilən ilk enerji istehsalı obyektidir. "Yaşıl enerji zonası" konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Kəlbəcər-1" KSES-də maşın zalı tikilmiş, yeni aqreqat, generator, idarəetmə panelləri və transformatorlar quraşdırılmışdır. Burada 110/6 kilovoltluq yarımstansiya inşa edilmişdir.

"Kəlbəcər-1" KSES Azərbaycanın ümumi enerji sisteminə qoşulmuşdur. Stansiyaların idarəetmə sistemi tam avtomatlaşdırılmış, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılmışdır ki, bu da istehsal olunan elektrik enerjisinin maya dəyərinin daha da aşağı düşməsinə gətirib çıxarır.




**26**
**İYUN**
**2022**

## Kəlbəcər rayonunda hərbi hissənin açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da- Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev şəxsi heyəti salamlamış və hərbçiləri 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbrik etmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Şəxsi heyət hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himnini ifa etmişdir.

Çıxışı zamanı Prezident İlham Əliyev qeyd etmişdir: “Biz 1993-cü ilin aprelində itirdiyimiz Kəlbəcərdə bu gün Ordu Gününü qeyd edirik, qürurla qeyd edirik. Onu da deməliyəm ki, işğal dövründə müxtəlif variantlar müzakirə olunurdu. Vasitəçilər tərəfindən bizə müxtəlif variantlar təklif edilirdi. Bütün bu variantlarda Kəlbəcərin Azərbaycana qaytarılması məsələsi ayrıca mövzu kimi gündəlikdə idi. Mən hər zaman deyirdim ki, biz bütün torpaqları geri almalıyıq. Beş rayonla biz kifayətlənə bilmərik. Kəlbəcər, Laçın, Şuşa, digər rayonlar da bizdə olmalıdır. Bu, bizim tarixi torpağımızdır, dədə-babalarımızın diyarıdır və buna nail olduq. Kəlbəcərdə bu hərbi bayramı keçirmək əlavə zövq verir, bizim qəlbimizi daha da böyük qürurla doldurur”.

Sonra Azərbaycan Respublikası Prezidentinin komando hərbi hissəsinə döyüş bayrağının verilməsi haqqında təqdimatı oxunmuşdur. Polkovnik-leytenant Fəxrəddin Cavadov döyüş bayrağını Ali Baş Komandandan qəbul edərək and içmişdir. Sonra komando hərbi hissəsinin şəxsi heyəti Müzəffər Ali Baş Komandan qarşısında “Komando andı”nı qəbul etmişdir. Ali Baş Komandan “Komando andı”nı qəbul edən şəxsi heyəti təbrik etmişdir. Şəxsi heyət təntənəli marşın sədaları altında döyüş bayrağı ilə tribunanın önündən keçmişdir.

Prezident İlham Əliyev hərbi şəhərcikdə əsgər yeməkxanası, tibb məntəqəsi, əsgər yataqxanası ilə tanış olmuş, yeni inşa edilən qərargah binasında yaradılan şəraitlə maraqlanmışdır. Prezident İlham Əliyev hərbi şəhərciyin ərazisində uzunömürlülük rəmzi kimi çinar ağacı əkmiş, şəhidlərin xatirəsinə ucaldılan abidə-kompleksini və “Dəmir yumruq” abidəsini ziyarət etmişdir.





26
İYUN
2022

## Kəlbəcər-Laçın avtomobil yolunun inşası ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi ilə bağlı görülən işlərlə tanış olmuşdur. Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2-4 hərəkət zolaqlı olmaqla, 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilmişdir.

Hazırda yolun müəyyən hissələrində qazma-dolğu işləri icra olunur, yeni torpaq yatağı inşa edilir. Bundan başqa, düzbucaqlı və dairəvi suötürücü boruların, həmçinin su kanallarının tikintisi, drenaj işləri və daş divarın inşası aparılır. Layihə üzrə yol boyunca tikintisi nəzərdə tutulan avtomobil tunellərindən ikisində qazma prosesi davam etdirilir. Bir tunelin giriş və çıxış hissələrində işlərə başlanılmışdır.





**26**
**İYUN**
**2022**

## "Qorçu" elektrik yarımstansiyasında görülən işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Laçın rayonunda 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasında görülən işlərlə tanış olmuşdur.

Laçın rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün ötən il istismara verilən "Kəlbəcər" yarımstansiyasından Laçının Qorçu kəndinə 42 kilometr məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq yüksəkgərginlikli ötürücü xətt çəkilir. Yüksəkgərginlikli xəttin üzərindəki ildırım ötürücü funksiyalı 24 damarlı fiber-optik kabellə internet xətti çəkilir ki, bu da enerji sisteminin idarə olunmasında siqnalların etibarlı şəkildə ötürülməsini təmin edəcəkdir.

Paralel olaraq Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1800 metr yüksəklikdə 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilir. Sistem əhəmiyyətli "Qorçu" yarımstansiyasında idarəetmə mərkəzi, açıq və qapalı paylayıcı qurğular yaradılır. Yarımstansiyanın ərazisində işçi heyət üçün yataqxana binası tikilir, lazımi şərait yaradılır.



**26**
**İYUN**
**2022**

## “Həkəriçay” su anbarı layihəsi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Laçın rayonunda “Həkəriçay” su anbarı layihəsi ilə tanış olmuşdur.

Başlanğıcını Laçın rayonu ərazisindən götürən Həkəri çayının uzunluğu 113 kilometr, orta illik su sərfi saniyədə 10,7 kubmetrə yaxındır. Həkəridə tutumu təxminən 90 milyon kubmetr olan su anbarı tikməklə buradakı təmiz, genetik faydalı suyu 254 kilometr uzunluğunda magistral yolla Sabirabada qədər gətirmək mümkündür.

“Həkəriçay” su anbarı içməli suyun toplanması üçün nəzərdə tutulmuşdur. Magistral üzərində nasos stansiyalarının tikilməsi ilə nisbətən hündür coğrafi ərazidə yerləşən 7 rayona suyun verilməsi planlaşdırılmışdır.





**26**
**İYUN**
**2022**

## Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olmuşdur.

Təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının tikintisinin 2024-cü ildə tamamlanması planlaşdırılır. Hava limanının uçuş zolağının uzunluğu 3000 metr, eni isə 60 metr olacaqdır. Aeroportun beynəlxalq standartlara uyğun olaraq layihələndirilən terminal binasının sahəsi 5000 kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edə biləcəkdir.

Laçın Beynəlxalq Hava Limanında yaradılacaq şərait ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcəkdir. Hava limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşir.



**26 İYUN 2022**

## Kəlbəcər şəhərinin Baş planı ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər şəhərinin Baş planı ilə tanış olmuşdur.

Kəlbəcər şəhərinin Baş planının hazırlanması zamanı onun özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq müxtəlif memarlıq ənənələri araşdırılmış, tətbiq edilə biləcək nümunələrlə bağlı təkliflər verilmişdir. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir. Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunacaqdır.




**26 İYUN 2022**

## Kəlbəcərdə İşğal və Zəfər muzeyləri kompleksinin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir. Prezident İlham Əliyev İşğal və Zəfər muzeyləri kompleksinin layihəsini əks etdirən videoçarxa baxmış və kompleksin təməlini qoymuşdur.

Hər iki muzey şəhərin mərkəzində salınacaq parkda tikiləcəkdir. Bu, gözəl bir mühitdə yerləşən möhtəşəm layihə olacaqdır. Çünki bu ərazi landşaftına görə heyrətamiz gözəlliyə malikdir. Kompleksin bir hissəsi işğal tarixinə, digəri isə Zəfərə həsr olunacaqdır.





**26**
**İYUN**
**2022**

## Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak etmiş və mərkəzin təməlini qoymuşdur.

Kəlbəcər rayonu ərazisində xüsusi dövlət əhəmiyyətli obyektlərin və hərbi hissələrin elektrik enerjisi ilə təmin olunması istiqamətində genişmiqyaslı işlər bu gün də davam etdirilir. İşlər çərçivəsində mənbə kimi Gəncə şəhərində yerləşən “Gəncə-2” yarımstansiyasından Daşkəsənə 110 kV-luq elektrik verilişi xətti çəkilmişdir. Kəlbəcərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təminatında bu xətt müstəsna rol oynayacaqdır.

Görülən işlər nəticəsində Kəlbəcərdə iki istiqamət üzrə 110 kV-luq hava xətləri bərpa edilmiş, bir istiqamətdə 110 kv-luq, dörd müxtəlif əraziyə isə 35 kV-luq elektrik xətləri çəkilmişdir. Ümumilikdə rayon ərazisində müxtəlif güclərdə 15 komplekt transformator məntəqəsi quraşdırılmışdır.




**26**
**İYUN**
**2022**

## "İstisu" mineral su zavodunun təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcərdə "İstisu" mineral su zavodunun təməlqoyma mərasimində iştirak etmişdir. Prezident İlham Əliyev zavodun təməlini qoymuşdur.

İstifadəyə veriləcək zavodda həm şüşə, həm də plastik butulka istehsalı xətlərinin qurulması planlaşdırılmışdır. Müəssisədə gündə 327 min, ildə isə 95 milyon butulka mineral su istehsal olunacaqdır. Suyun mənbəyinə gəldikdə isə 200 metr dərinlikdə yeni quyu qazılmışdır.

"İstisu" bulağının suyu kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə seçilir. Laborator analizlər göstərmişdir ki, mineralların miqdarı 6,7 qrama çatan bir litr suyun tərkibi litium, brom, yod, mərgümüş, fosfor, sink, mis, nikel, maqnezium, dəmir və digər kimyəvi maddələrlə zəngindir. Bu bulaqların suyundan mədə-bağırsaq, qaraciyər, öd kisəsi və sair xəstəliklərin müalicəsində istifadə edilir.




**26**
**İYUN**
**2022**

## "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasındakı tikinti işlərinin gedişi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasındakı tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

"Yaşıl enerji" strategiyasına uyğun olaraq hazırda Kəlbəcər rayonunun ərazisində ümumi gücü 27 meqavat olan 5 kiçik su elektrik stansiyası tikilir. Kiçik su elektrik stansiyalarında ümumilikdə 9 hidroaqreqat fəaliyyət göstərəcəkdir. Stansiyaların enerji sisteminə inteqrasiyası üçün 110 və 35 kV-luq xətlər çəkilir. İşlərin böyük hissəsinin görüldüyü bu 5 stansiya rəqəmsal qaydada mərkəzi SCADA Dispetçer İdarəetmə Sisteminə inteqrasiya ediləcəkdir.

Kəlbəcərdə yeni tikilən elektrik stansiyalarında il ərzində ümumilikdə 100 milyon kilovat/saata yaxın ekoloji cəhətdən təmiz enerji istehsal olunacaqdır.





**26**
**İYUN**
**2022**

## “İstisu” sanatoriyasının təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda “İstisu” sanatoriyasının təməlqoyma mərasimində iştirak etmiş və sanatoriyanın təməlini qoymuşdur.

34 hektar ərazidə salınması nəzərdə tutulan “İstisu” İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfər qəbul etmək imkanına malik olacaqdır. Kompleksdə bərpa-sağlamlıq mərkəzi ilə yanaşı, 10 kottecin tikilməsi də planlaşdırılmışdır.

Kəlbəcərin İstisu kəndinin məşhur mineral suyu olan “İstisu” bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriya yaradılmışdır. İşğal dövründə yararsız hala salınan sanatoriya yeni simada tam bərpa olunacaq və sanatoriyanın əvvəlki şöhrəti qaytarılacaqdır.




30
İYUN
2022

## Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin yaranması

Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransı işə başlamışdır. Konfrans öz işinə iyunun 30-da start vermişdir.

Konfransın ilk günündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edərək konfrans iştirakçılarını salamlamışdır.

Çıxışı zamanı Qoşulmama Hərəkatının tarixində vacib bir tədbir keçirildiyini və Bakıda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılacağını vurğulayan Prezident İlham Əliyev həmrəylik və qarşılıqlı dəstəyin gücləndirilməsi istiqamətində əlavə bir addım olan Azərbaycanın bu təşəbbüsünü dəstəklədiyinə görə Qoşulmama Hərəkatına üzv olan dövlətlərə minnətdarlığını bildirmişdir.

Çıxışı zamanı eyni zamanda Azərbaycanla Ermənistan arasındakı keçmiş Qarabağ münaqişəsinə, 30 il boyunca torpaqlarımızın Ermənistanın işğalına məruz qaldığına, 1 milyon insanımızın məcburi şəkildə öz vətənlərindən didərgin düşdüyünə toxunan dövlətimizin başçısı, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın tarixi ədaləti bərpa edərək öz torpaqlarını düşmən işğalından azad etdiyi bir dövrdə göstərdiyi həmrəyliyə görə də Qoşulmama Hərəkatına üzv olan dövlətlərə dərin təşəkkürünü ifadə etmişdir.

Konfransın ilk günündə "Bakı Bəyannaməsi" və "Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin İş Qaydalarına dair Nizamnamə" qəbul edilmiş, təşkilatın rəsmi loqosu və bayrağı təsdiq olunmuş, qurumun sədri və sədr müavinləri seçilmişdir.